# Qəbələ sosial-iqtisadi inkişafın birinci rübündə

Yola saldığımız 2015-ci ilin birinci rübündə ölkəmizin qabaqcıl rayonlarından biri olan Qəbələdə sosial-iqtisadii inkişaf sürətlə davam etmiş, geniş yaraşıqlı asfalt yollar salınmış, turizmi daha da inkişaf etdirmək məqsədilə bir sıra yeni istirahət mərkəzləri tikilib istifadəyə verilmiş, yeni tikintilər davam etmişdir. Rayonun qəsəbə və kəndlərinə yeni qaz xətti çəkilmiş, iqtisadiyyatın əsas sahələri olan sənaye, kənd təsərrüfatı və sosial sahələrdə bütün işlər uğurla icra olunmuşdur.

İlin birinci rübündə rayon iqtisadiyyatının bütün sahələri üzrə bütövlükdə 42.787 min manat məhsul istehsal olunmuşdur. Bu rəqəm ötən ilin müvafiq dövru ilə müqayisədə 3.171 min manat, yaxud 8 faiz çoxdur. Ayrı-ayrı sahələrə gəldikdə sənaye üzrə 4 milyon 110 min, kənd təsərrüfatı üzrə 9 milyon 612 min, tikinti üzrə 19 milyon 741 min, nəqliyyat üzrə 1 milyon 16 min, rabitə üzrə 244 min, ticarət üzrə 7 milyon 154 min manatlıq məhsul buraxılmış və ya xidmət göstərilmişdir. Bütün göstəricilər 2014-cü ilin birinci rübü ilə müqayisədə yüksəkdir. Hər adambaşına düşən məhsul və xidmətin həcmi 411 manat olmuş, ötən ilin müvafiq dövrunə görə 7 manat artmışdır. Kənd təsərrüfatına gəldikdə keçən ilin payızında bu ilin məhsulu üçün 21300 hektar sahəyə payızlıq taxıl səpilmişdir. Payız-qış aylarında bu sahələrə aqrotexniki qulluq göstərilmişdir.

Bu il mart ayının üçüncü ongünlüyündə rayonda yazlıq bitkilər əkininə başlanmışdır. Belə ki, aprel ayının 1-dək rayonda 221 hektar sahəyə kartof, 52 hektar sahəyə tərəvəz, 98 hektar sahəyə yonca, 119 hektar sahəyə birillik ot toxumu səpilmişdir. Cari ilin aprel ayının 1-nə rayon üzrə iribuynuzlu mal-qaranın sayı 48.327 baş, o cümlədən inək və camışların sayı 25.132 baş, qoyun və keçilərin sayı 218.766 baş, donuzların sayı 1.039 baş olmuşdur.

Ötən ilin birinci rübünə görə cari ilin birinci rübündə mal-qaranın baş sayı azalsa da heyvandarlıq məhsulları istehsalında artım müşahidə olunmuşdur. Yəni diri çəkidə ət istehsalı 1.363 ton (196 ton çox) süd istehsalı 7.151 ton (22 ton çox), yumurta istehsalı 3 milyon 127 min ədəd (5 min ədəd çox) olmuşdur.

2015-ci ilin birinci rübü ərzində rayonun sənaye müəssisələrində 4 milyon 110 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 0,3 faiz çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 65,7 faiz təşkil etmişdir. Rüb ərzində rayonda 2 milyon 817,8 min manatlıq meyvə və tərəvəz məhsulları emal olunmuş və konservləşdirilmiş, bu məhsulların hamısı satılmışdır. Sənaye müəssisələrində çalışan 947 nəfərin orta aylıq nominal əməkhaqqı 4118,5 manat təşkil etmiş və əvvəlki ilin birinci rübü ilə müqayisədə 2 faiz artmışdır.

İlin birinci rübü ərzində rayonda əsas kapitala yönəlmiş investisiyanın həcmi 22 milyon 418 min manat, tikinti-quraşdırma işlərinin həcmi isə 18 milyon 671 min manat (artım 93 min manat, yaxud 0,4 faiz çox) olmuşdur. Sözügedən dövrdə sahəsi 3.037 kvadratmetr olan 36 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir.

Qəbələ Dağ Xizək kompleksinin birinci mərhələsi tikilib başa çatmış, ikinci mərhələsinin, Qəbələ Uşaq Futbol Akademiyasının, rayon məhkəməsinin, ASAN xidmətin inzibati binasının, qolf klubunun tikintiləri davam etdirilir.

Əvvəlki illərdə olduğu kimi rayonda ilin birinci rübündə də mədəniyyətin və turizmin inkişafına xeyli diqqət verilmişdir. 2003-cü ildə rayonda 3 turizm obyekti vardısa indi bunların say 5 dəfə artmış, 15-ə çatmışdır. Yerlərin sayı 623-ə bərabər olaraq 6 dəfə artmışdır.

Rayonda 4 ibtidai, 11 əsas, 53 orta məktəb, 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi 9 ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə təhsilin və əhaliyə tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması davam etdirilmişdir.

İlin ilk rübü ərzində əhaliyə rabitə və nəqliyyat xidmətinin yaxşılaşdırılması davam etmişdir. Belə ki. 2014-cü ilin birinci rübünə nisbətən yük daşınması 226 min tondan 255 min tona (artım 12,5 faiz), sərnişin daşınması 1 milyon 632 min nəfərdən 1 milyon 852 min nəfərə (artım 6,3 faiz), rabitə xidmətinin həcmi 238 min manatdan 244 min manata (artım 6 faiz), evlərdə olan telefon aparatlarının sayı 10.813 nöqtədən 10.914 nöqtəyə (artım 101 nöqtə) çatmışdır. Hər 100 ailəyə 53 telefon nöqtəsi düşmüşdür.

Rayonda rüb ərzində pərakəndə əmtəə dövriyyəsinin həcmi 27 milyon 951 min manat (artım 1 milyon 61 min manat) təşkil etmişdir.

2015-ci ilin birinci rübü ərzində rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 280 manat təşkil etmiş və 2014-cü ilin həmin dövrünə nisbətən 7,8 faiz artmışdır, Əmək və məşğulluq mərkəzi üzrə 01 aprel 2015-ci il tarixə 245 nəfər işsiz vətəndaş qeydə alınmışdır. Onlardan 48 nəfəri qadındır. İşsiz vətəndaşların 122 nəfəri öz arzularına görə müxtəlif peşələr üzrə işə düzəldilmişdir. İşə düzələnlərin 26 nəfəri qadındır.

Rayon üzrə məşğul əhalinin sayı 51.763 nəfərdir. Məşğul əhalinin 9.329 nəfəri muzdla, 42.434 nəfəri muzdsuz işləyənlərdir. Muzdla işləyənlərin 6.335 nəfəri (68 faizi) dövlət mülkiyyətində, 2.994 nəfəri və ya 32 faizi isə qeyri-dövlət mülkiyyətində fəaliyyət göstərir.

2003-cü ilin oktyabr ayının 1-dən 2015-ci ilin aprel ayının 1-dək rayonda 12.971 yeni iş yeri açılmışdır. Onlardan 10923-ü daimi iş yeridir. 2915-ci ilin birinci rübündə isə 275 yeni iş yeri açılmışdır ki, onlaprın da hamısı daimi iş yeridir.

2015-ci ilin aprel ayının 1-nə rayon əhalisinin sayı 101.882 nəfərə çatmışdır. Yeni doğulanların sayı 428 nəfər, ölənlərin sayı 135 nəfər, o cümlədən 1 yaşa qədər ölənlərin sayı 2 nəfər, ümumi artım isə 323 nəfər olmuşdur.

Rayon ərazisi 1550 kvadratkilometr olmaqla hər kvadratkilometrə 65,7 nəfər düşür.

**RAYON STATİSTİKA İDARƏSİ.**

# Veteranla görüş

Böyük vətən müharibəsi illərində Azərbaycan xalqının misilsiz şücaəti hamıya məlumdur. Bu savaşda qəbələlilər, o cümlədən bumlular da fədakarlıq göstərmişlər. Beş il gedən döyüşlərdə təkcə Bumdan 78 nəfər həlak olmuş, 80 nəfərdən artıq insan əlil və veteran kimi doğma vətənə qayıtmışdır. Veteranlardan İbrahim Muradov, İsrayıl Yaqubov, Aslan Rəşidov, Şövkət Ağəmmədov, Dəmir İsmayılov, Mahmudalı Ağasıyev, Hüseyn Məmmədov, Müzəffər Əzəmmədov, Fətullah Aləmmədov, Əhməd Muxtarov və başqaları ağır döyuşlərdə öndə getmiş, alman faşistlərinə zərbələr vurmuşlar. Onların şanlı döyüş yollları hər bir gənc üçün örnək olmuşdur. Elə odur ki, Qarabağ döyüşlərində də bumlular fəallıq göstərmiş, bir neçəsi şəhid olmuşdur.

Veteranlardan ancaq bu gün iki nəfəri—Fətullah Aləmmədov və Əhməd Muxtarov ömür sürür. Qələbənin 70 illiyi ilə əlaqədar Bum qəsəbə yaradıcılıq evi ilə qəsəbə kitabxanasının birgə keçirdiyi görüşü yaradıcılıq evinin direktoru Zahir Aslanov açaraq sözü veteran Əhməd Muxtarova vermişdir. Ə. Muxtarov keçdiyi döyüş yollarından, o qanlı günlərin xatirələrindən söhbət açmış, görüş iştirakçılarının suallarına cavab vermişdir.

Toplantıda qəsəbə ictimaiyyətinin nümayəndələri ilə yanaşı inzibati ərazi üzrə nümayəndə Eynullaa Məmmədov, qəsəbə bələdiyyəsinin sədri Əddin Həsənov, həkim məntəqəsinin müdiri Müsalim Musayev, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Emin Baratoğlu və başqaları iştirak etmişlər.

Sonda xatirə şəkilləri çəkdirilmişdir.

**Eldar QULİYEV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

# Ədəbi-bədii gecə

Bu il avqust ayında böyük ədib, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 ili tamam olur. Bu münasibətlə respublikamızın hər yerində şairin həyat və yaradıcılığını əks etdirən tədbirlər keçirilir.

Bu günlərdə Qəbələ şəhər 3 saylı tam orta məktəbində də unudulmaz şairin xatirəsi yad edildi. Şagirdlər uzun müddət həvəslə, sevgiylə hazırladıqları tədbiri nəhayət ki, təqdim etdilər. Məktəb kitabxanasının təşkilatçılığı və ədəbiyyat müəllimlərinin köməyi ilə tədbir ərsəyə- araya gəldi. Məktəbin direktoru Ə. Əliyeva, kitabxana müdiri Təranə İsgəndərova tədbirin təşkilatçıları olmuşlar. Onlar şairin yaradıcılığının bütün mərhələlərini və ədəbi janrlarını əhatə edən geniş bir təldbir hazırlanmasına böyük əmək sərf etmişdilər.

Tədbiri məktəbin Azərbaycn dili və ədəbiyyatı müəllimi Elza Kərimova açdı və şairin yaradıcılığına həsr olunmuş geniş məruzə etdi. Daha sonra tədbir iştirakçılarına şairin yaradıcılıq irsini əhatə edən ədəbi-bədii kompozisiya təqdim olundu.

Şairin öz səsiylə dinlənilən şeirləri, həyatına aid nümayiş etdirilən fotoşəkillər tədbirə xüsusi rəng qatdı.

Tədbirdə məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Ramin Nəbiyevin şairin yaradıcılığı haqqında nitqi də maraq doğurdu.

Yığıncağı məktəbin direktoru Ədilə Əliyeva yekunlaşdırdı və maraqlı tədbirin hazırlanmasında əməyi olan müəllimlərə və şagirdlərə məktəb rəhbərliyi adından təşəkkür etdi.

**Vüsal SƏMƏDOV.**